# Özəl sektor ölkə iqtisadiyyatında aparıcı qüvvədir

## *Azərbaycan Prezidenti birmənalı olaraq bəyan edib ki, sahibkarlığın inkişafına dövlət bundan sonra da öz dəstəyini verəcək*

**Əvvəlki illərdə olduğu kimi, 2016-cı ilin birinci yarısında da paytaxt və Bakıətrafı qəsəbələrlə yanaşı, regionların inkişafında müsbət tendensiyalar müşahidə olunmuşdur. Dünyanı bürüyən maliyyə və iqtisadi böhrana baxmayaraq, ölkəmizdə heç bir sosial layihənin icrası ixtisar olunmamış, məktəb və uşaq bağçalarının, səhiyyə ocaqlarının tikintisi davam etmişdir. Həmçinin bölgələrdə yeni emal və sənaye müəssisələri, ictimai-iaşə, turizm və sair obyektlər istifadəyə verilmişdir. Məhz bunun nəticəsidir ki, cari ilin 6 ayında ölkəmizdə 90 minə yaxın iş yeri açılmışdır ki, bunun da 78 mini daimidir.**

Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasdakı nitqində bu məsələyə münasibət bildirən Prezident İlham Əliyev demişdir: "Özəl sektor uzun illərdir ki, dövlət tərəfindən çox böyük dəstək — həm siyasi, həm də ki, maddi dəstək alır. Güzəştli şərtlərlə verilən kreditlərin həcmi 1 milyard dolları ötüb. Ona görə, əlbəttə, özəl sektor da sosial məsuliyyət daşımalıdır. Ona görə, bax, 78 min iş yeri açılmış, 26 min iş yeri bağlanmışdır. Deməli, 50 mindən çox yeni iş yerləri açılıbdır və bu da çox müsbət haldır".

Qeyd edək ki, Azərbaycanda yeni iş yerlərinin yaradılmasında özəl sektorun üzərinə daha böyük məsuliyyət düşür. Təkcə bir faktı diqqətə çatdıraq ki, ümumi daxili məhsulda özəl sektorun payı son illər 80 faizi keçib. Bu da müsbət göstərici olmaqla yanaşı, həm də onu sübut edir ki, sahibkarlıq ölkə iqtisadiyyatında aparıcı qüvvədir. Məhz dövlətimiz bunu nəzərə alaraq bu sahəyə dəstəyini ildən-ilə gücləndirir. Təsadüfi deyil ki, güzəştli kreditlərin həcmi artırılmış, biznes mühitinin inkişafını tənzimləyən qanunvericilik bazası təkmilləşdirilmişdir. Məsələn, ötən il ölkə sahibkarlarına dövlət büdcəsinin vəsaiti hesabına müvəkkil kredit təşkilatları üzrə kredit portfeli 1 milyard 15 milyon manat, o cümlədən Sahibkarlığa Kömək Milli Fondu üzrə 945 milyon manat, Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti tərəfindən 70 milyon manat təşkil edib. Keçən il dövlət büdcəsindən və digər mənbələrdən ayrılmış vəsait hesabına 5243 sahibkara 249 milyon manat məbləğində güzəştli kredit verilib. Bütövlükdə ayrılan güzəştli kreditlərin 85,6 faizi aqrar sektorun, 14,4 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilib.

Cari ilin 6 ayında da bu sahədə uğurlu nəticələr özünü göstərir. Artıq sahibkarlara güzəştli şərtlərlə 73 milyon manat kredit verilib. Bu vəsaitin 77 faizi əvvəlcə verilmiş kreditlərin qaytarılması hesabınadır. Kreditlərin 80 faizi aqrar sektora yönəldilib ki, bunun da 74 faizi regionların payına düşüb. Təhlillər onu deməyə əsas verir ki, artıq dövlət büdcəsinə daha az yük düşür.



Həmçinin ötən ildən başlayaraq sahibkarlığın inkişafına mənfi təsir edən süni maneə və əngəllərin aradan qaldırılması istiqamətində dövlət başçısının verdiyi tapşırıqların icrası uğurla davam etdirilmişdir. Məsələn, sahibkarlıq sahəsində əsassız yoxlamaların aparılması 2 il müddətinə dayandırılmış, sahibkarlıq fəaliyyətinin xüsusi razılıq tələb edən növlərinin sayı 59-dan 37-dək azaldılmışdır. Bu prosedurlar artıq "ASAN xidmət" mərkəzlərində həyata keçirilir, həmçinin "Elektron lisenziya" portalı fəaliyyətə başlayıb. Əvvəldə qeyd etdiyimiz kimi, sahibkarlıq ölkə iqtisadiyyatında mühüm rol oynamaqla yanaşı, həm də əhalinin rifah halının yaxşılaşmasına xidmət edir. Son illər Azərbaycan hökumətinin qarşıya qoyduğu əsas vəzifələrdən biri də insanların məşğulluğunun artırılmasıdır. Burada əsas meyar hər bir vətəndaşın fərdi qaydada işlə təmin olunmasıdır. Bu məsələ istər dövlət, istərsə də özəl qurumlar qarşısında qaldırılmışdır. Tövsiyə olunmuşdur ki, özəl şirkət rəhbərləri belə ixtisarlara yol verməsinlər.

Digər tərəfdən, sosial sahədə həyata keçirilən tədbirlərdən biri insanların ünvanlı sosial yardım almasıdır. On ildən çoxdur ki, bu təşəbbüs ölkəmizdə tətbiq olunub. Hazırda yüz mindən çox ailəyə dövlət tərəfindən ünvanlı sosial yardım verilir. Öz məşğulluğunu təmin etmək üçün insanlara daha çox imkan yaradılmalıdır. Bu isə tədricən dövlətdən ünvanlı sosial yardım alanların sayının azalmasına gətirib çıxaracaq.

Ölkəmizin rəhbəri bununla bağlı fikirlərini belə ifadə edib: "Biz tədricən aztəminatlı ailələr üçün şərait yaratmalıyıq ki, onlar özləri pul qazansınlar, özləri işlə məşğul olsunlar. Çünki bəzi hallarda dövlət sektorunda açılmış iş yerlərinə o qədər də böyük maraq göstərilmir. Bəziləri deyirlər ki, mən dövlətdən yardım alıram, niyə gedib işləməliyəm? Bu, yaxşı hal deyil. Bu, ələbaxımlıq yaradır. Ələbaxımlıq da gələcəkdə çox böyük problem ola bilər. Ona görə, insanlar özləri daha da məsuliyyətli olmalıdırlar. Dövlət qurumları şərait yaratmalıdır ki, tədricən ünvanlı sosial yardım əvəzinə hər bir insan özü üçün iş qursun".

Yeni iş yerlərinin yaradılması və əhalinin məşğulluğunun artırılması istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən də mühüm tədbirlər həyata keçirilir. Belə ki, dövlət başçısının tapşırığına əsasən sözügedən nazirlik tərəfindən 10 illik dövrü əhatə edən yeni "Azərbaycan Respublikasının Məşğulluq Konsepsiyası" hazırlanır. Bu Konsepsiyada mövcud makroiqtisadi vəziyyət və əmək bazarının təhlili, böhrana qarşı qabaqlayıcı tədbirlər, qarşıdakı illər üçün məşğulluq siyasətinin əsas məqsəd və vəzifələri öz əksini tapıb.

Dövlət başçısının rəhbərliyi altında həyata keçirilən tədbirlərin uğurlu icrası onu deməyə əsas verir ki, 2016-cı ildə yeni iş yerlərinin yaradılması və əhalinin məşğulluğunun artırılması istiqamətində yeni nailiyyətlərə imza atılacaqdır. Bununla da ölkə iqtisadiyyatının aparıcı qüvvəsi olan özəl sektorun inkişafına yeni təkan veriləcəkdir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**